Funded by the European Union

EU4Environment
Green Economy in Eastern Partner Countries

# Azərbaycanda istehsal müəssisələri və ekspertlər üçün Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) metodologiyasının institusionallaşması üzrə seminar

## GÜNDƏLIK

**Tarix: 26 Sentyabr 2023**
**Məkan: Park Inn Hotel, Bakı, Azərbaycan**

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

## GÜNDƏLİK

**Moderator:** Asya Çələbova, ACE Group Consultants, UNIDO-nun Azərbaycanda Milli İcra Tərəfdaşı

| Vaxt | Bənd |
|---|---|
| **9.30 – 10:00** | **Qeydiyyat** |
| 10:00 – 10:30 | **Salamlama çıxışları**<br><br>**cənab Ümid Ağazadə**<br>**İqtisadiyyat Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq şöbəsinin müdir müavini**<br><br>**cənab Faiq Mütəllimov**<br>**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri**<br><br>**cənab Elmar İsayev**<br>**Katibliyin rəhbəri, KOBİA** |
| 10:30 – 10:40 | **EU4Environment Təşəbbüsü: KOM-ların yaşıllaşma fəaliyyətlərinin icmalı**<br>cənab Kamran Rzayev, EU4Environment Təşəbbüsünün Azərbaycan üzrə Milli Koordinatoru |
| 10:40 – 11:15 | İstehsalçı KOM-lar üçün RSDTİ təcrübələri və faydaları ilə tanışlıq<br>Dr.Yohannes Fresner, UNIDO-nun baş texniki məsləhətçisi |
| 11:15 – 11:25 | Sualllar və cavablar |
| 11:25 – 11:45 | **EU4Environment proqramı çərçivəsində RSDTİ Nümayiş Şirkətləri və RSDTİ təlimçilərinin təcrübəsi ilə tanışlıq**<br>Asya Çələbova, ACE Group Consultants şirkətinin direktoru, UNIDO-nun Azərbaycanda RSDTİ üzrə Milli İcraçı Tərəfdaşı (MİT)<br><br>(Azərbaycanda RSDTI fəaliyyətləri haqqında videoçarx nümayişi) |
| 11:45 – 12:15 | RSDTİ təlim və nümayiş proqramı: mərhələlər, rollar və məsuliyyətlər<br>Dr. Yohannes Fresner, UNIDO-nun baş texniki məsləhətçisi |
| 12:15 – 12:30 | **Suallar və cavablar** |
| 12:30 – 13:30 | **Nahar və söhbətləşmə** |
| 13:30 – 13:55 | Bakı və Gəncədə RSDTİ Klubları: öyrənilmiş dərslər və gələcək perspektivlər<br>- cənab Mirlazım Dadaşov, Təhsil mütəxəssisi, UNEC Davamlı İnkişaf və Yaşıl İqtisadiyyat Mərkəzinin Layihə Qrupunun üzvü<br>- Ləman Həsənova, Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun aparıcı elmi işçisi, RSDTİ Klublarının Fasilitatoru |
| 13:55 – 14:10 | Suallar və cavablar |

| | |
|---|---|
| 14:10 – 14:30 | **Azərbaycanda KOM-ların yaşıllaşdırılmasına institusional dəstək: Mövcud Təşəbbüslər, Tələblər və Gələcək Gözləntilər**<br><br>• **KOM-ların yaşıllaşdırılması üzrə KOBİA-nın təşəbbüsləri: regional proqramlar və imkanlar**<br>**Spiker, KOBİA (təsdiqlənməli)**<br><br>• **EU4Environment Proqramı çərçivəsində RSDTİ-nin tətbiqi üzrə UNIDO təcrübəsi**<br>*Asya Çələbova, ACE Group Consultants şirkətinin direktoru, UNIDO-nun Azərbaycanda RSDTİ üzrə Milli İcra Tərəfdaşı (MİT)*<br><br>• **Aİ-nin Yaşıl Məhsullar üzrə Vahid Bazarına (SMGP) Girişin Təşviqi: Azərbaycanda məhsulun ekoloji izinin tətbiqi perspektivləri**<br>*cənab Yaşar Kərimov, UNIDO-nun SMGP təşviqi üzrə Milli Partnyoru, REC Qafqaz Bakı ofisinin direktoru*<br><br>• **Binalarda Enerji Səmərəliliyi. Azərbaycanda icbari enerji auditləri**<br>*Dr. Nurməmməd Məmmədov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru* |
| 15:25 – 15:40 | Suallar və cavablar |
| 15:40 – 16:10 | **Azərbaycanda KOM-ların yaşıllaşması sahəsinə institusional dəstək üzrə müzakirələr: RSDTİ-yə xüsusi diqqət**<br><br>*Moderator: Asya Çələbova* |
| 16:10 – 16:30 | Tədbirə yekun vurulması və bağlanış<br>Dr. Yohanes Fresner |

**Seminarın məqsədləri, gözlənilən aralıq və yekun nəticələr**
Resurs Səmərəliliyi və Daha Təmiz İstehsalın (RSDTİ) institusionallaşdırılması üzrə bir günlük seminarı Azərbaycanda RSDTİ metodologiyasının tətbiqi vasitəsilə yaşıl və dairəvi iqtisadiyyatı təşviq etmək məqsədi daşıyır. Konkret olaraq, bu seminar iştirakçılara RSDTİ üzrə praktiki müəssisə daxili qiymətləndirmələrin necə aparıldığını başa düşməyə (gələcəkdə yeni layihələr üçün baza kimi özünüqiymətləndirmə və ekspertlər tərəfindən keçirilən kənar auditdən istifadə etməklə) kömək edəcəkdir. Xüsusilə, UNIDO-nun RSDTİ təlim proqramının əsas elementlərinə aşağıdakılar daxildir:

- RSDTİ nədir
- İstehsal proseslərinin səmərəliliyini necə qiymətləndirməli və imkan sahələrini müəyyənləşdirmək
- Enerji səmərəliliyi, su və materialların idarə edilməsində mütərəqqi RSDTİ təcrübələri
- RSDTİ layihəsinin hazırlanması
- Biznesin planlaşdırılması və RSDTİ təşəbbüslərinin maliyyələşdirilməsi
- İcbari enerji auditlərinin icmalı (Azərbaycanda həyata keçiriləcək)

Seminarın sonunda “ACE Group Consultants” şirkətinin komandası UNIDO ekspertləri ilə birlikdə təlim ehtiyaclarını və mövzularını müəyyən edəcək və növbəti mərhələlərdə Azərbaycanda KOBİA-nın KOM İnkişaf Mərkəzlərinə xüsusi diqqət yetirməklə RSDTİ metodologiyasına və RSDTİ-nin institusionallaşdırılmasına dair tövsiyələr verəcəkdir.

Beləliklə, seminarın əsas məqsədi qarşıdakı gələcək dövrdə Azərbaycanda KOM-lar üçün RSDTİ xidmətlərinin göstərilməsi və bunun daha da institusionallaşdırılması üçün KOBİA-ya potensial dəstək imkanlarını araşdırmaqdır. Bu, Aİ tərəfindən maliyyələşdirilən EU4Environment proqramı çərçivəsində UNIDO-nun RSDTİ metodologiyası üzrə texniki ekspertlərinə təlim verilməsini əhatə edəcəkdir. Bu təşəbbüs KOM-lar üçün təhsil imkanlarının genişləndirilməsi və təşviqini dəstəkləmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası”nın 1.1.3-cü bəndinə uyğundur.

Bu seminar UNIDO-nun müəssisələrdə həm iqtisadi, həm də ekoloji aspektləri yaxşılaşdırmağa yönəlmiş tədbirlər vasitəsilə sənayenin ətraf mühitə təsirini azaldan yanaşmasını əhatə edəcəkdir. Bu yanaşma RSDTİ metodologiyasını, müəssisələrin ehtiyacları əsasında resurslardan və sudan səmərəli istifadəni, istehsal proseslərində enerji səmərəliliyinin və enerji auditinin tətbiqini, kimyəvi maddələrin təhlükəsiz idarə edilməsini və tullantıların azaldılmasını ehtiva edir. Nəticədə iştirakçılar RSDTİ metodologiyasının prinsiplərini və onun istehsal müəssisələri üçün faydalarını başa düşəcək və yerli qanunvericilikdə gözlənilən dəyişikliklərdən xəbərdar olacaqlar.

Eyni zamanda, təlim proqramı “Enerji resurslarından səmərəli istifadə və enerji səmərəliliyi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş çərçivəni, icbari enerji auditinin aparılmasını, enerji resurslarından səmərəli istifadəyə dair təşviqat tədbirlərinin keçirilməsini, eləcə də enerji səmərəliliyi, səmərəlilik potensialının qiymətləndirilməsi və enerji idarəetmə sistemi sahəsində təlimlərin təşkilini dəstəkləyir.

**İştirakçılar**
Azərbaycanda ətraf mühitin idarə edilməsi, enerji səmərəliliyi, mühəndislik (kimya, sənaye, ekologiya və ya əlaqəli sahələr) və/və ya istehsal şirkətlərində çalışan mütəxəssislər, habelə Hökumət və KOBİA nümayəndələri, akademik dairələrin üzvləri və sənaye müəssisələrinin mütəxəssisləri seminarın hədəf auditoriyasıdır. EU4Environment proqramı çərçivəsində RSDTİ fəaliyyətlərinin həyata keçirilməsində iştirak etmiş müəssisələr və ekspertlər də seminara iştiraka dəvət olunurlar. İştirakçıların təqribi sayı 50 nəfərdir.

**Qeydiyyat**

Bu seminarda iştirak etmək üçün aşağıdakı link vasitəsilə qeydiyyatdan keçin:
https://bit.ly/3LkzyhV

**Ümumi məlumat**
Hal-hazırda müəssisələrin istehsal və ekoloji fəaliyyətinin yaxşılaşdırılması üçün ən mühüm yanaşmalardan biri Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) metodologiyasının tətbiqidir. Bu yanaşma izafi xərclərin qarşısını almaq, ətraf mühitə çirkləndiricilərin emissiyalarını və atqılarını azaltmaq və tullantıların yaranmasını azaltmaq üçün resurslara, enerjiyə və materiallara qənaət potensialının davamlı qiymətləndirilməsinə əsaslanır – bu da hər şeydən əvvəl müəssisənin iqtisadi xərclərinin azaldılmasına töhfə verir. RSDTİ istehsalın səmərəliliyi, ətraf mühitin idarə edilməsi və insan inkişafı kimi üçlü məqsədə nail olmaq baxımdan profilaktik ekoloji strategiyaların tətbiqi üçün ümumi anlayış kimi

istifadə olunur. RSDTİ proqramı ölkədə yerli potensialı gücləndirir, sənaye və hökumət arasında dialoqu təşviq edir və Ekoloji Təhlükəsiz Texnologiyaların transferi və adaptasiyası üçün investisiyaları asanlaşdırır. Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNIDO) bütün növ resurslardan istifadə zamanı itkilərin mənbələrini müəyyən etmək, belə itkilərin əsas səbəblərini aydınlaşdırmaq, müəyyən edilmiş itkilərin azaldılmasına və ya tamamilə aradan qaldırılmasına yönəlmiş fəaliyyətlərin reallaşma mümkünlüyünü qiymətləndirmək məqsədilə müəssisələrin mütəxəssisləri və ətraf mühitin idarə edilməsi sahəsində çalışan ekspertlər tərəfindən istifadə oluna biləcək RSDTİ metodologiyasını işləyib hazırlamışdır.

Qeyd etmək  lazımdır ki, 2022-ci il iyulun 1-dən qüvvəyə minmiş “Enerji resurslarından səmərəli istifadə və enerji səmərəliliyi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq (illik enerji istehlakı 1 000 ton neft ekvivalentindən çox olan təsərrüfat subyektlərində) təsərrüfat subyektləri və qeyri-yaşayış binaları (tikinti sahəsi ən azı 10 000 kvadratmetr və ya illik enerji istehlakı 250 ton neft ekvivalentindən çox olan qeyri-yaşayış binalarında) hər üç ildən bir məcburi enerji auditi keçirməlidir.

Müəssisələrin əməl etməli olduğu bu məcburi prosedurları nəzərə alaraq, RSDTİ təlim proqramı enerji səmərəliliyinin artırılması imkanlarını əhatə etməklə bərabər, yerli müəssisələr üçün məcburi enerji auditi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş meyar və tələbləri izah edir. İqtisadi cəhətdən sərfəli enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi sahəsində əhalinin maarifləndirilməsi tədbirlərinə dair məlumat bazasının yaxın gələcəkdə tətbiqi nəzərdə tutulduğundan, belə RSDTİ təlim proqramının istehsal müəssisələri üçün əhəmiyyəti artır. RSDTİ-ni daha da təşviq etmək və yerli müəssisələrin məlumatlılığını və qanunvericiliyin tələblərinə uyğunluğunu təmin etmək baxımdan “EU4Environment” proqramı çərçivəsində yaradılmış imkanlar əsasında istehsal müəssisələri üçün RSDTİ-nin institusionallaşdırılmasında KOBİA-nın dəstəyi mühüm əhəmiyyət kəsb edir.

**EU4Environment Təşəbbüsü haqqında**

“Avropa İttifaqı Ətraf Mühit naminə” (EU4Environment) layihəsi  ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və onlara təkan verməklə, ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə Şərq tərəfdaşlığı ölkələrinə təbii sərvətlərini qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etmək məqsədilə həyata keçirilir. Layihə, təqribən 20 milyon AVRO büdcə ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir və beş tərəfdaş təşkilatla birgə icra olunur: İƏİT, UNECE, UNEP, UNIDO və Dünya Bankı. Təşəbbüsün icra dövrü 2019-2024-cü illəri əhatə edir.

Proqram haqqında daha ətraflı məlumat üçün www.eu4environment.org səhifəsini ziyarət edin.

Azərbaycanda RSDTİ fəaliyyətləri haqqında ətraflı məlumat üçün https://recp.aceconsultants.az/en səhifəsini ziyarət edin.